

# ULU ÖNDƏR HEYDƏR ƏLİYEV DAHİ ŞƏXSİYYƏT, QAYĞIKEŞ RƏHBƏR İDİ

**Kənd Təsərrüfatı Nazirliyinin Baş Elm və Təbliğat İdarəsinin rəisi vəzifəsində işlədiyim vaxtlarda Azərbaycan KP MK-nın Kənd Təsərrüfatı şöbəsi ilə birgə fəaliyyət göstərirdik. Ulu Öndər Heydər Əliyev 1969-cu ildə respublikaya rəhbərlik etməyə başladıqdan sonra isə bu əlaqələr daha da genişlənmişdi.**

1970-ci il sentyabr ayının əvvəllərində MK-nın Kənd Təsərrüfatı şöbəsinin müdir müavini Nikolay Volodin zəng edib MK-nın birinci katibi Heydər Əliyevin yanına gedəcəyimizi bildirəndə çox həyəcanlandım, rəhbərlə ilk dəfə görüşəcəkdim. Ulu öndərin iş otağına necə keçdiyimizi xatırlaya bilmirəm. Bizi çox səmimi qarşıladı. Birbaşa mətləbə keçdi. "Bilirsiniz ki, avqust ayının 23-də biz Mərkəzi Komitənin plenumunda kənd təsərrüfatının vəziyyətini ətraflı müzakirə etdik. Heyvandarlıq sahəsindəki vəziyyət məni daha çox narahat edir. Ümumittifaq miqyasda da bu sahənin vəziyyəti yaxşı deyil. Odur ki, Mərkəzi Komitənin heyvandarlığa dair ayrıca, xüsusi plenumunu keçirməyi qərarlaşdırmışıq. Siz bu plenumun materiallarının hazırlanmasında iştirak etməlisiniz. Hazırlanacaq materiallar hərtərəfli, dolğun olmalıdır".

O, heyvandarlıq sahəsindəki vəziyyət, qarşıda duran vəzifələr, onların həyata keçirilməsi barədə tapşırıqlarını verdi. Qarşısında heç bir yazı, yaddaş yox idi. Heyvandarlığın yem bazası, mal-qaranın yemlənib bəslənməsi, yetişdirilməsi, damazlıq və döllük işindən tutmuş qısırlıq və xəstəliklərlə mübarizəyədək bütün məsələləri elə aydınlaşdırıb izah edirdi ki, elə bil bu sahənin mahir bilicisi idi. Əslində, rəhbərin dedikləri plenumda oxunacaq hazır məruzə idi. Sonralar mən dəfələrlə bu istedadın şahidi oldum.

Qarşımızda çox mürəkkəb və məsuliyyətli vəzifə dururdu. Hazırlayacağımız materiallar yüksəksəviyyəli olmalı idi. Nikolay Volodin, kənd təsərrüfatı nazirinin heyvandarlıq sahəsi üzrə müavini İmran Əbilov, mən və bir neçə başqa mütəxəssis 1970-ci ilin dekabrınadək bu işlə məşğul olduq. Dekabrın 21-də keçirilən Plenum heyvandarlığın inkişafında dönüş mərhələsi oldu.

Ulu Öndərin qəbulunda növbəti dəfə 1971-ci il yanvarın sonunda oldum. Plenuma hazırladığımız materiallardan razı qaldığını bildirdi və məni Mərkəzi Komitənin kənd təsərrüfatı şöbəsinin müdir müavini vəzifəsinə təyin etdi. 10 il Mərkəzi Komitədə işlədim. Həmin dövrü həyatımın həm gərgin, həm də ən dolğun, parlaq və şərəfli səhifələri kimi xatırlayıram.

O zaman Mərkəzi Komitədə ciddi nizam-intizam hökm sürürdü. Ulu Öndər kadrlardan hər zaman, hər işdə diqqətli və ədalətli olmağı tələb edirdi. Ədalətsizliyə və nöqsanlara qarşı barışmaz idi. Onun məşhur, çox geniş məna daşıyan "Qoy ədalət zəfər çalsın" çağırışı təkcə Azərbaycanda deyil, bütün SSRİ məkanında da rəğbətlə qarşılanmışdı.

Heydər Əliyevdə rəhbərə xas olan bütün keyfiyyətlər var idi: tükənməz enerji, böyük təşkilatçılıq bacarığı, hər hansı bir məsələni dərindən təhlil etmək qabiliyyəti, yüksək peşəkarlıq və dəqiqlik, müdriklik, geniş dünyagörüşü, qətiyyətlilik və qeyd etdiyim kimi tələbkarlıq. Bütün bunlarla bərabər, böyük qayğıkeşlik, insanpərvərlik və sadəlik. Bu keyfiyyətlərinə görə o, hamıya nümunə və böyük bir həyat məktəbi idi. Respublikamızda 1970-ci illərin sonu 1980-ci illərin əvvəllərində əldə olunan nailiyyətlər də məhz bu yüksək qabiliyyətin və insanları səfərbər etmək bacarığının nəticəsi idi.

Sovetlər dövründə ölkə mərkəzləşdirilmiş qaydada Moskvadan idarə edilirdi. Respublikaların büdcələri, onların maliyyələşdirilməsi məsələləri də Moskvada həll olunurdu. Mərkəzdə belə məsələlərə çox ehtiyatla, mən deyərdim ki, bəlkə xəsisliklə baxılırdı. Moskva qarşısında məsələ qaldırmaq, onun həllinə nail olmaq isə təkcə həmin sahəni yaxşı bilmək və əsaslandırmaqla bitmirdi. Bu, həm də respublika rəhbərindən cəsarət, qaldırdığı məsələnin həllində dönməzlik, onu sona çatdırmaq qabiliyyəti tələb edirdi. Ulu Öndərdə bütün bunların hamısı var idi. Onun şəxsi təşəbbüsü ilə 9 il ərzində Azərbaycanın kənd təsərrüfatına dair Sov.İKP. MK-nın və SSRİ Nazirlər Sovetinin 1970-ci il iyul ayının 23-də "Azərbaycan SSR-də kənd təsərrüfatını inkişaf etdirmək tədbirləri haqqında", 1975-ci il iyul ayının 9-da "Azərbaycan SSR-də kənd təsərrüfatı istehsalının gələcək intensivləşdirilməsi tədbirləri haqqında" və 1979-cu il fevral ayının 22-də "Azərbaycan SSR-də kənd təsərrüfatı istehsalını daha da ixtisaslaşdırmaq, üzümçülüyü və şərabçılığı inkişaf etdirmək tədbirləri haqqında" 3 böyük qərarı qəbul edildi. Bu sənədlərin qəbul edilməsi və həyata keçirilməsi üçün Heydər Əliyevin təşkilatçılığı ilə respublikamıza mərkəzdən külli miqdarda əsaslı vəsait, texnika, ehtiyat hissələri, tikinti materialları, mineral gübrələr, bitkilərin və mal-qaranın xəstəliklərinə qarşı işlədilən kimyəvi preparatlar və dərman vasitələri, yüksək məhsuldar cinslər göndərildi. Respublika başdan-başa tikinti meydançasına çevrilmişdi. Həmin illərdə yüzlərlə emal müəssisəsi, konserv və şərab zavodları, yem istehsalı müəssisələri və ət kombinatları, heyvandarlıq kompleksləri tikilib istifadəyə verildi. Kənd təsərrüfatının intensivləşdirilməsi və təmərküzləşdirilməsi, onun sənaye texnologiyası əsasında inkişafı adi qaydada idarə edilən əkinçilik və heyvandarlıq təsərrüfatlarını böyük aqrar-sənaye komplekslərinə çevirdi.

İntensiv texnologiyaların tətbiq edilməsi kənd təsərrüfatı məhsullarının istehsalının kəskin surətdə artmasına, onların keyfiyyətinin yüksəlməsinə səbəb oldu. Respublikamız 12 il dalbadal Ümumittifaq yarışının qalibi olaraq "Qırmızı bayraq"larla təltif edildi. Həmin dövrdə heyvandarların üç dəfə ümumittifaq yarışı elan edildi və bunların üçündə də Azərbaycan Respublikası qalib oldu. Yüzlərlə insan Sosialist Əməyi Qəhrəmanı adına layiq görüldü, orden və medallarla təltif edildi. Kənd təsərrüfatı istehsalının yüksək templə inkişaf etməsi Azərbaycan kəndinin sosial-iqtisadi vəziyyətində, onun əhalisinin həyat tərzində köklü dəyişikliklərə səbəb oldu. O dövrdə ölkənin elə bir respublikası yox idi ki, bizi ora ezamiyyətə göndərməsinlər. Bizim nailiyyətlərimiz, əməkçilərimizin güzəranı digər respublikalardan əsaslı surətdə fərqlənirdi. Mən cəsarətlə deyə bilərəm ki, durğunluq illəri adlandırılan o illər respublikamızın inkişaf və yüksəliş illəri idi. Məhz bunun nəticəsi idi ki, SSRİ-də ixracı idxalını üstələyən iki respublikadan biri Azərbaycan idi.

Çox illər öncə təcrübə mübadiləsi üçün böyük bir qrupla Gürcüstan Respublikasına getmişdik. Tədbirin yekunu Mərkəzi Komitənin iclas zalında keçirilirdi. Zala daxil olan MK-nın birinci katibi Eduard Şevardnadze xitabət kürsüsünə qalxmadan Azərbaycandan gələn nümayəndə heyətinə yaxınlaşaraq dedi: "Bizim təcrübəmizi öyrənməyə gəlməyiniz məni bir qədər çətin vəziyyətə salır. Bilin ki, biz nə ediriksə, hamısını Heydər Əliyevdən öyrənirik. Heydər Əliyevin çıxışları, məruzələri, onun həyata keçirdiyi tədbirlərin heç biri mənim diqqətimdən qaçmır. Bunlar hamısı bizim üçün bir proqram sənədi kimi qəbul edilir".

Kənd təsərrüfatının, xüsusilə heyvandarlığın inkişafındakı yeniliklərin reallaşmasında MK-nın birinci katibi Heydər Əliyevin rəhbərliyi ilə keçirilən müşavirələr, seminar-müşavirələr mühüm rol oynayırdı. Belə tədbirlərdən sonra rayon rəhbərləri müzakirə olunan məsələlər barədə bizdən əlavə məlumatlar alırdılar. Beləliklə, qabaqcıl rayonların sayı ildən-ilə artırdı. Rayon rəhbərləri təkcə öz rayonlarında deyil, respublikanın başqa rayonlarında da görülən işləri, onların göstəricilərini diqqətlə izləyirdilər. Heydər Əliyev vaxtaşırı olaraq rayonlara gedir, təsərrüfatlarda vəziyyəti öyrənir və əhalinin qayğıları ilə məşğul olurdu. Bir qayda olaraq bu səfərlərdə biz və respublikanın müxtəlif nazirlik və idarələrinin rəhbərləri Ulu Öndəri müşayiət edirdik. Rəhbərin tapşırıqlarının əksəriyyəti yerindəcə həll olunur, bəziləri isə qeydə alınaraq həlli üçün ciddi nəzarətə götürülürdü.

1981-ci ilin yanvar ayında ulu öndər məni yanına dəvət edib dedi: "Bilirsən ki, xeyli vaxtdır kənd təsərrüfatı nazirinin müavini İmran Əbilovu nazirin sovxozlar üzrə müavini vəzifəsinə təyin etmişik. O, paralel olaraq əvvəlki vəzifəsini də icra edir. Bu da bir çox çətinliklər yaradır. Lakin hər iki sahə çox vacibdir və hər ikisi də xüsusi diqqət tələb edir. Qərara gəlmişik ki, səni oraya göndərək. Bunu məndən nazir Məmməd Əsgərov da xahiş edib. Amma sənə bir tapşırığım var, get burada necə işləmisənsə, orada da o cür işlə. Sən bilirsən ki, heç nə mənim nəzərimdən qaçmır. Səni "Xalqlar dostluğu" ordeninə təqdim etmişik. Yəqin ki, bu günlərdə bu barədə Fərman qəbul ediləcəkdir". Bu, rəhbər qayğısı idi. Özü də tək mənə yox, onunla birlikdə işləyən bütün insanlara göstərilən qayğı...

Heydər Əliyev həmişə yaşlı, keçmişdə xidmətləri olmuş insanlara xüsusilə böyük qayğı göstərirdi. Daim onların həyat və şəraitləri ilə maraqlanırdı. Elə bir tədbir olmazdı ki, həmin tədbirə onları dəvət etməsin. O zamankı Dzerjinski klubunda, indi onun adını daşıyan möhtəşəm sarayda onları birinci cərgədə əyləşdirər və buna xüsusi fikir verərdi. Bunu ona görə edirdi ki, zala daxil olanda onlarla görüşsün, hal-əhval tutsun, qayğılarına qalsın. O insanların necə sevinc və fərəh hissi keçirdiklərini gözlərim önündə canlandırır, bunun nə qədər böyük əhəmiyyəti olduğunu indi daha çox dərk edirəm.

1983-cü ildə Azərbaycan Həmkarlar İttifaqları Şurasının (AHİŞ) aqrar-sənaye məsələləri üzrə katibi vəzifəsində işləyirdim. Həmkarlar ittifaqı təşkilatlarının geniş, əhatəli fəaliyyətləri sırasında xaricə turist səfərlərinin və beynəlxalq əlaqələrin təşkili xüsusi yer tuturdu. Bunlardan ən möhtəşəmi Ulu Öndərin xalqımıza bəxş etdiyi, 1983-cü il noyabrın 24-dən dekabrın 20-dək Qara dəniz və Aralıq dənizi ölkələrinə turist səfəri idi. O zaman Heydər Əliyev Sov. İKP. MK siyasi bürosunun üzvü, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini idi. Dünyanın ən böyük ölkəsinin rəhbərlərindən biri və işinin son dərəcə gərgin olmasına baxmayaraq Azərbaycanı bir an belə unutmur, respublikamıza və xalqımıza daim diqqət göstərirdi.

Bu səfər onunla fərqlənirdi ki, "Azərbaycan" gəmisinin göyərtəsindəki insanların - əmək qabaqcıllarının, görkəmli elm, dövlət və incəsənət xadimlərinin hamısı bir respublikadan - Azərbaycandan idilər. Səfər etdiyimiz ölkələrdə Azərbaycan geniş təşviq edilməli və tanıdılmalı idi. Bunun üçün kifayət qədər əyani vəsait götürülmüş, mühazirələr hazırlanmışdı. Ulu Öndərin tapşırığı və böyük uzaqgörənliyi ilə həyata keçirilən səfər uğurla başa çatdı.

Sovetlərin süqutundan sonra respublikamızın düşdüyü ağır vəziyyət, üstəlik torpaqlarımızın erməni faşistləri tərəfindən işğal edilməsi şəraitində müdrik xalqımızın istəyi və təkidli xahişləri ilə ikinci dəfə Ali hakimiyyətə yayıdan ulu öndər Heydər Əliyev bu bəlaların qarşısını aldı, ölkəmizi parçalanmaq təhlükəsindən xilas etdi. Ölkədə sosial-iqtisadi vəziyyəti qaydaya salmaq məqsədilə onun məşhur "heç kim oturub gözləməməlidir ki, ona bu və ya başqa tapşırıq verilsin, hərə öz işi ilə məşğul olmalıdır" müraciəti çox mühüm rol oynadı. Sıxıntıya, ümidsizliyə düşmüş xalqımızda özünəinam və coşqunluq yaratdı. Ümummilli Liderin bir-birinin ardınca qəbul etdiyi qərarlar, imzaladığı qanunlar bu coşqunluğun təminatçısı və meyarı oldu. Ölkədə iqtisadiyyatın güclənməsi dövlətimizi də gücləndirdi. Ulu Öndər ölkəmizi böhranlı vəziyyətdən çıxarmaq, onun gələcək inkişafını təmin etmək üçün beynəlxalq münasibətlərdə də ciddi dəyişikliklər etdi. Onun 1994-cü il sentyabr ayının 20-də Bakıda dünyanın aparıcı dövlətlərinin rəhbərləri ilə "Əsrin müqaviləsi"ni imzalaması Bakı-Tbilisi-Ceyhan neft kəmərinin çəkilməsini reallaşdırdı, Azərbaycanın beynəlxalq aləmdə nüfuzunu artırdı, dünyanın bütün böyük dövlətləri ilə qarşılıqlı faydalı əlaqələr yaratmasını təmin etdi.

Heydər Əliyevin ən böyük xidmətlərindən biri onu əvəz edə biləcək siyasi varis yetişdirməsidir. Prezidentimiz, Müzəffər Ali Baş Komandan İlham Əliyev Ulu Öndərin əsasını qoyduğu siyasi kursu uğurla davam etdirərək Azərbaycanı dünyanın güclü iqtisadiyyatı olan lider ölkələrdən birinə çevirdi, erməni faşistlərini havadarlarının köməyi ilə işğal etdikləri torpaqlarımızdan qovdu. Riyakar hayların illər boyu uydurduqları böhtanları, qarayaxmaları məhv edərək millətimizin qürurunu ucalara qaldırdı, tarixi ədaləti bərpa etdi.

**Surxay TAĞIZADƏ,**
**Əməkdar kənd təsərrüfatı işçisi.**